# “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 610; 2001, N 10, maddə 646; 2002, N 5, maddələr 273, 279, N 7, maddə 413, N 8, maddə 478, N 9, maddə 563; 2003, N 8, maddə 434; 2004, N 1, maddə 19, N 5, maddə 345; 2005, N 1, maddə 18, N 4, maddə 299, N 9, maddə 799, N 12, maddə 1101; 2006, N 8, maddə 676, N 11, maddə 935; 2007, N 1, maddə 10, N 3, maddə 223, N 9, maddə 865, N 12, maddə 1247; 2008, N 1, maddələr 7, 10; 2009, N 7, maddələr 531, 534; 2010, N 7, maddə 615; 2011, N 11, maddə 999; 2013, N 5, maddə 509, N 6, maddə 649, N 8, maddə 900; 2014, N 4, maddə 348, N 6, maddə 625; 2015, N12, maddələr 1450, 1461) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Dördüncü abzasdan “306,” rəqəmləri çıxarılsın.

2. On dördüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on beşinci abzas əlavə edilsin:

“Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsində nəzərdə tutulmuş cinayətə dair iş üzrə - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, vergilərin ödənilməməsi ilə əlaqədar qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icra edilməməsi və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törədilməsinə münasibətdə həmçinin Azərbaycan Respublikasının Vergilər Nazirliyi.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2016-cı il*